# Kouçluq Fəaliyyətinin Əhatə Dairəsi və İmtahan Proseduru

## TERMİNLƏR, SİMVOLLAR VƏ QISALTMALAR

**BƏDƏN DİLİ:** İnsanlarla münasibətdə üz ifadələri, mimikalar, baxış, baş, əl, qol, ayaq, duruş tərzi, səs tonu, danışma üslubu kimi bədən dili mesajlarının hamısı.

**CANLANDIRMA:** Uyğun kouçluq texnikaları ilə müştərinin çatmaq istədiyi hədəf anını yaşamasını təmin etmək.

**ETİKA QAYDALARI:** Kouçların xidmət etdiyi müddətdə tətbiq etmələri lazım olan professional davranış, şəxsi və peşəkar bütövlük, ardıcıllıq və məsuliyyət, səlahiyyət sərhədləri, davamlı peşəkar inkişaf, məxfilik və qərəzsizlik, münasibət və davranış qaydaları.

**AKTİV DİNLƏMƏ:** Müştərinin izahatlarından yazılı və şifahi mesajlarını doğru şəkildə qəbul edib, özünə geri bildirmə və əks etdirməklə çatdırmaq.

**ƏVVƏLKİ UĞURLARI XATIRLATMA TEXNİKASI:** Müştərinin motivasiyasını təmin etmək və güclü tərəflərini özünə göstərmək məqsədiylə keçmişdə əldə etdiyi uğurlardan bəhs etməsinə əsaslanan kouçluq texnikası.

**GİZLİLİK SİYASƏTİ:** Kouçluq müddətində müştəriylə bağlı əldə etdiyi şəxsi və ya korporativ məlumatları müştərinin icazəsi olmadan üçüncü şəxslərlə paylaşmamaq qaydası.

**FƏRDİ GÖRÜŞ:** Kouçluq xidmətinin keçirildiyi görüşlərin hər biri.

**GÜCLÜ SUALLAR:** Müştərinin inkişaf və həll yolu axtarışında kəşf etməsini, eyni zamanda hərəkət etməsini təmin edən və düşünməyə sövq edən suallar.

**Məqsədə çatdıqda əldə edilən uğuru təsəvvür etmə texnikası:** Müştərinin məqsədinə çatmaqda olan qətiyyətini üzə çıxartmaq və motivasiyasını təmin etmək məqsədilə tətbiq edilən kouçluq texnikası.

**ISCO:** Beynəlxalq Standart Peşə Təsnifatı.

**PEŞƏNİN AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI MƏŞĞULLUQ TƏSNİFATINDA TƏSNİFAT KODU:** 2635 Sosial problemlər və məsləhətlər üzrə peşəkar mütəxəssislər.

**PEŞƏNİN AZƏRBAYCAN RESPUBLİKASI İQDİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ TƏRƏFİNDƏN İQDİSADİ FƏALİYYƏT NÖVLƏRİNİN SİYAHISINDAKI FƏALİYYƏT KODU:** 9609011 İnsan potensialının üzə çıxarılması, yaşam hədəflərinin düzgün müəyyən edilməsi və sair bu kimi sahələrdə məsləhətlərin verilməsi üzrə xidmət.

**KOUÇLUQ GÜNDƏMİ (MÖVZUSU):** Müştərinin fərdi görüşlərdə danışmaq və dəqiqləşdirmək istədiyi mövzuların hər biri.

**KOUÇLUQ XİDMƏTİ/PROSESİ:** insan potensialının üzə çıxarılması, yaşam hədəflərinin düzgün müəəyyən edilməsi üçün fəaliyyət planı hazırlamaq, müştərinin fəaliyyətə keçməsini təmin edərək fəaliyyət prosesini izləmək, insanın şəxsi və professional potensialını reallaşdırmağa istiqamətlənmiş fərqindəlik, inkişaf və həll yolu seçimlərini artıraraq bu istiqamətdə dəstəkləyici

işləri həyata keçirən peşəkar fəaliyyət.

**MÜŞTƏRİ:** Kouçluq xidmətinin verildiyi şəxs.

**TAPŞIRIQ VERMƏ TEXNİKASI:** Müştərinin hədəfinə uyğun fəaliyyət planları çərçivəsində yerinə yetirməsi üçün kouç tərəfindən verilən vəzifə və məsuliyyətlər.

**TÖVSİYƏ MƏKTUBU:** Kouçun xidmət göstərdiyi müştəri, sponsor və ya işəgötürən tərəfindən alınmış, göstərilən xidmətin mövzusu və ümumi saat sayı bəyan olunmuş, şəxsiyyət vəsiqəsi və ünvan məlumatları olan tarixli və imzalı rəsmi qeyd.

**RİSK:** Təhlükədən yaranan itki, yaralanma və ya digər zərərli nəticələrin baş vermə ehtimalı.

**SÖZ ALMA TEXNİKASI:** Kouç tərəfindən müştəriyə verilən tapşırıqların və ya müştərinin fəaliyyət planını həyata keçirəcəyinə dair söz verməsinə əsaslanan kouçluq texnikası.

**SPONSOR:** Kouçluq xidmətinin qarşılığını ödəyən tərəf.

**İZLƏMƏ TEXNİKASI:** Kouçun verdiyi tapşırıqlarla bağlı müştəridən geridönüş (rəy) alması.

**TƏHLÜKƏ:** İş yerində mövcud olan və ya xaricdən gələ biləcək, işçiyə və ya iş yerinə təsir edə biləcək zərər və ya xəsarət alma potensialı.

**YAŞAM DAİRƏSİ:** Müştərinin yaşam sahələrini birlikdə təsvir etmək üçün istifadə olunan kouçluq texnikası.

**Davranış Pozğunluğu:** Bədənlə bağlı bir səbəb olmadan, xüsusilə ictimai uyğunlaşma və davranışlarda özünü göstərən nizamsızlıqlar.

## PEŞƏ TƏQDİMATI

**a)** Kouç (Səviyyə 6) müştərinin hədəflərini müəyyənləşdirməsini, fəaliyyət planı hazırlamasını və fəaliyyət göstərməsini təmin edərək irəliləmə prosesini izləyən; müştərinin şəxsi və professional potensialını həyata keçirməyə istiqamətlənmiş fərqindəlik, inkişaf və həll yolu seçimlərini artırıcı və bu istiqamətdə dəstəkləyici işləri icra edən peşəkar şəxsdir.

**b)** Kouç (Səviyyə 6) işlərini iş sağlamlığı və təhlükəsizliyi, mühitin qorunması, müvafiq hüquqi proseslər və keyfiyyət standartlarına uyğun icra edir, kouçluq xidmətləri ilə bağlı təqdimat fəaliyyətlərinin, müqavilə və maliyyə proseslərinin icra edilməsi, iş proqramının yerinə yetirilməsi və məlumat təhlükəsizliyinin təmin edilməsi kimi iş təşkilatının fəaliyyətlərini həyata keçirir və peşəkar inkişafı ilə əlaqəli fəaliyyət göstərir.

## KOUÇ SƏRİŞTƏLİLİYİ

| | | |
|---|---|---|
| 1 | **SƏRİŞTƏLİLİYİN ADI** | Kouç |
| 2 | **ARAYIŞ KODU** | - |
| 3 | **SƏVİYYƏ** | 6 |
| 4 | **BEYNƏLXALQ TƏSNİFATDAKI YERİ** | ISCO 08: 2635 (Sosial problemlər və məsləhətlər üzrə peşəkar mütəxəssislər) |
| 5 | **NÖV** | - |
| 6 | **KREDİT DƏYƏRİ** | - |
| 7 | **A) DƏRC EDİLMƏ TARİXİ** | 06/01/2025 |
| | **B) REDAKTƏ NO** | Red. No: 01 |
| | **C) REDAKTƏ TARİXİ** | 06/01/2025 |
| 8 | **MƏQSƏD** | Bu peşə səriştəlilik, insanların (müştəri) fərdi və peşəkar potensialını reallaşdırmağa yönəlmiş fərqindəlik, inkişaf və həll variantlarını artıran və bu istiqamətdə dəstək verən fəaliyyətləri həyata keçirən Kouçların sahib olmalı olduqları bilik, bacarıq və səriştələri müəyyənləşdirmək, peşəkar səriştəliliklərini etibarlı bir sənədlə sübut etmələrinə imkan yaratmaq, təlim, imtahan və sertifikatlaşdırma təşkilatlarına mənbə və istinad təqdim etmək, fərdlərə peşəyə dair bələdçilik etmək məqsədilə hazırlanmışdır. |
| 9 | **SƏRİŞTƏLİLİYİN ƏSASINI TƏŞKİL EDƏN PEŞƏ STANDART(LAR)I** | |
| Kouç (Səviyyə 6) Peşə Standartı | | |
| 10 | **SƏRİŞTƏLİLİK İMTAHANINA GİRİŞ ŞƏRT(LƏR)İ** | |
| Bu səriştəliliyin A2 bölməsinin əlavə A2-1 hissəsində təsvir olunan təlim mövzularına uyğun olaraq əsas kouçluq bilik və bacarıqlarını, tətbiqləri ilə birlikdə əhatə edən minimum 60 saatlıq təlim almaq | | |
| 11 | **SƏRİŞTƏLİLİYİN STRUKTURU** | |
| **11-a) Zəruri Bölmələr** | | |
| A1: Əmək sağlamlığı və təhlükəsizliyi, Ətraf mühitin mühafizəsi, İşin təşkili, Keyfiyyətli və peşəkar inkişaf<br>A2: Kouçluq prosesinin qurulması və icra olunması | | |
| **11-b) Seçmə Bölmələr** | | |
| - | | |
| **11-c) Bölmələrin Qruplaşdırma Alternativləri** | | |

| | |
|---|---|
| - | |
| **12** | **ÖLÇMƏ VƏ QİYMƏTLƏNDİRMƏ** |

Kouç (Səviyyə 6) üzrə Peşə Səriştəlilik imtahanında iştirak etmək istəyən namizədlər, A2 səriştəlilik bölməsinin EK A2-1 çərçivəsində müəyyən edilmiş mövzularda təhsil aldıqlarını sübut edən rəsmi sənədləri Sertifikatlaşdırma Orqanına təqdim etməlidirlər. Namizədlər tərəfindən təqdim ediləcək sənədlər; müəyyən olunmuş təhsil mövzuları ilə əlaqələndirilə biləcək şəkildə aydın və başa düşülən olmalı, alınan təlimin məqsədini, məzmununu, müddətini və təlimçiyə dair məlumatları əhatə etməli, həmçinin təlimi təşkil edən təşkilat tərəfindən təsdiqlənmiş olmalıdır. Namizəd tərəfindən təqdim edilən sənədlər imtahan və sertifikatlaşdırma təşkilatı və qiymətləndirmə meyarlarına cavab verən şəxslər tərəfindən qiymətləndirilməlidir.

Kouç (Səviyyə 6) üzrə Peşə Səriştəlilik Sertifikatını əldə etmək istəyən namizədlər, bölmələrdə müəyyən olunmuş nəzəri və qabiliyyətə əsaslanan imtahanlarda iştirak etməlidirlər. Namizədlər səriştəlilik sertifikatını əldə edə bilmələri üçün həm nəzəri, həm də qabiliyyətə əsaslanan imtahanlardan uğurla keçməlidirlər.

Səriştəlilik bölmələrindəki nəzəri və qabiliyyətə əsaslanan imtahanlar, hər bölmə üçün ayrı-ayrılıqda və ya birlikdə keçirilə bilər. Lakin hər bir bölmənin qiymətləndirilməsi müstəqil şəkildə aparılmalıdır.

| | |
|---|---|
| **13** | **QİYMƏTLƏNDİRMƏ MEYARLARI** |

Kouç (Səviyyə 6) üzrə Peşə Səriştəliliyin ölçmə və qiymətləndirmə proseslərində iştirak edəcək imtahan komissiyasında aşağıdakı şərtlərə əsasən ən azı iki (2) qiymətləndirmə edən təyin edilir:

- Qiymətləndirmə edənlərdən biri psixologiya, sosiologiya, pedaqogika, insan resursları, biznes idarəçiliyi və ya kommunikasiya bölmələrindən birində müəllim və ya müəllim köməkçisi olmalı və A2 bölməsinin Əlavə A2-1 hissəsində müəyyən edilmiş təlim mövzularına uyğun olaraq ən az 60 saatlıq Kouçluq təlimi almalıdır.
- Digər qiymətləndirmə edən isə; ən az 300 saat mövcud kouçluq təcrübəsinə malik olmalı və ya ən az 300 saat kouçluq təlimi vermiş olmalıdır. Qiymətləndirmə edənlər, faydalananlar (təlim vermək üçün), müştərilər və/və ya işəgötürən və ya sponsorlar tərəfindən təqdim olunan ödəmə qəbzi, müqavilə və ya tövsiyə sənədi kimi rəsmi qeydlərlə təlim və təcrübə vəziyyətlərini sənədlərlə sübut etməlidirlər.

| | | |
|---|---|---|
| **14** | **SERTİFİKATIN ETİBARLILIQ MÜDDƏTİ** | Kouç (Səviyyə 6) Peşə Səriştəlilik Sertifikatının etibarlılıq müddəti 2 (iki) ildir. |
| **15** | **NƏZARƏT TEZLİYİ** | - |
| **16** | **SƏNƏDİN YENİLƏNMƏSİ ZAMANI TƏTBİQ OLUNACAQ ÖLÇMƏ VƏ QİYMƏTLƏNDİRMƏ ÜSULU** | İki (2) illik etibarlılıq müddətinin sonunda, sənəd sahibinin qabiliyyəti aşağıda göstərilən üsullardan ən az biri istifadə olunmaqla qiymətləndirilir:<br><br>a) 2 illik sənədin etibarlılıq müddəti ərzində ümumilikdə ən az bir il və ya son altı ay ərzində müvafiq sahədə çalışdığını göstərən qeydlər (xidməti arayış, tövsiyə məktubu, müqavilə, mədaxil qəbzi və s.) təqdim etmək,<br><br>b) Səriştəlilik çərçivəsində yer alan bölmələr üçün müəyyən olunmuş təcrübə imtahanlarında iştirak |

| | | |
|---|---|---|
| | | etmək.<br><br>Qiymətləndirmə nəticəsi müsbət olan namizədlərin sənədinin etibarlılıq müddəti əlavə 2 il uzadılır. |
| **17** | **PEŞƏDƏ ÜFÜQİ VƏ ŞAQULİ İRƏLİLƏMƏ YOLLARI** | - |
| **18** | **SƏRİŞTƏLİLİYİ İNKİŞAF ETDİRƏN TƏŞKİLAT(LAR)** | Beynəlxalq və Yerli Kouçluq Təşkilatları |
| **19** | **SƏRİŞTƏLİLİYİ TƏSDİQLƏYƏN TƏŞKİLAT** | Azerbaijan Quantum and Coaching Cooperation MMC-nin Şəxslərin Sertifikatlaşdırma Orqanı |

## A1 ƏMƏK SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ, ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, İŞİN TƏŞKİLİ, KEYFİYYƏTLİ VƏ PEŞƏKAR İNKİŞAF SƏRİŞTƏLİLİK BÖLMƏSİ

| | | |
|---|---|---|
| 1 | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ADI** | Əmək Sağlamlığı və Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi, İşin Təşkili, Keyfiyyətli və Peşəkar İnkişaf |
| 2 | **ARAYIŞ KODU** | A1 |
| 3 | **SƏVİYYƏ** | 6 |
| 4 | **KREDİT DƏYƏRİ** | - |
| 5 | **A) DƏRC EDİLMƏ TARİXİ** | 06/01/2025 |
| | **B) REDAKTƏ NO** | Red. N: 01 |
| | **C) REDAKTƏ TARİXİ** | |
| 6 | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ƏSASINI TƏŞKİL EDƏN PEŞƏ STANDARTI** | |
| Kouç (Səviyyə 6) Peşə Standartı | | |
| 7 | **ÖYRƏNMƏ NƏTİCƏLƏRİ** | |

**Öyrənmə Nəticəsi 1: İş mühitində tətbiq edəcəyi əmək sağlamlığı və təhlükəsizliyi ilə ətraf mühitin mühafizəsi tədbirlərini izah edir.**

**Əsas Öyrənmə Nəticələri:**

1.1. İş mühitində tətbiq edəcəyi təhlükəsiz və sağlam iş üsullarını izah edir.
1.2. İş mühitində yarana biləcək fövqəladə hallar üçün müəyyən edilmiş prosedurları bilir.
1.3. İş mühitində görülməli olan ətraf mühitin mühafizəsinə dair tədbirləri izah edir.

**Öyrənmə Nəticəsi 2: Kouçluq xidmətlərinin iş proqramlaşdırılması, qeydiyyat və maliyyə prosedurlarına dair iş prosesini izah edir.**

**Əsas Öyrənmə Nəticələri:**

2.1. Göstərdiyi xidmətlərin təqdimatı ilə bağlı strategiyasını və tətbiqlərini izah edir.
2.2. Kouçluq xidmətlərinin təklifi, müqaviləsi və maliyyə prosedurlarını qanuni müddəalara uyğun olaraq izah edir.
2.3. Müştərilərə göstəriləcək xidmətə uyğun iş proqramı hazırlamaq üçün vacib amilləri izah edir.
2.4. İş mühitinin və materialların keçiriləcək görüşə uyğun şəkildə necə tənzimlənəcəyini izah edir.
2.5. Xidmət prosesləri və müştəri qeydlərinin aparılması, eləcə də onların təhlükəsizliyinin təmin olunması üsullarını izah edir.

**Öyrənmə Nəticəsi 3: Kouçluq xidmətlərinin keyfiyyətini izləyərək zəruri təkmilləşdirmələri müəyyən edir.**

**Əsas Öyrənmə Nəticələri:**

3.1. Kouçluq xidmətlərinin keyfiyyətinin izlənməsi və xidmətin inkişaf etdirilməsi yönümlü məlumatları və tətbiqləri əsaslandırılmış şəkildə izah edir.
3.2. Kouçluq xidmətlərində özünüqiymətləndirmə tətbiqini və bunun səbəblərini əsaslandıraraq

izah edir.

**<u>Öyrənmə Nəticəsi 4: Kouçluq xidmətləri ilə bağlı peşəkar inkişaf mənbələri və tətbiqlərini izah edir.</u>**

**Əsas Öyrənmə Nəticələri:**

4.1. Peşəkar təlim alınması, rəsmi tanınması mümkün olan proqramları izah edir.
4.2. Peşə fəaliyyəti ilə bağlı mövcud qanun və normaları izah edir.
4.3. Kouçun şəxsi inkişafı ilə bağlı tətbiqləri izah edir.
4.4. Kouçluq tətbiqlərində kouçun inkişafı üçün həmkar dəstəyini əhatə edən tətbiqləri izah edir.

| | |
|---|---|
| **8** | **ÖLÇMƏ VƏ QİYMƏTLƏNDİRMƏ** |

**8 a) Nəzəri İmtahan**

**Çoxseçimli Suallarla İmtahan (T1):** Nəzəri imtahanda T1 qiymətləndirmə vasitəsi olan meyarlar üçün namizədlərə ən az 35 sualdan ibarət, hər biri 5 cavab variantı olan və bərabər balla qiymətləndirilən suallar təqdim olunur. Çox seçimli suallardan ibarət imtahanda boş buraxılmış və ya yanlış cavablandırılmış suallar üçün şərt tətbiq edilmir. İmtahanda namizədlərə hər bir sual üçün orta hesabla bir dəqiqə vaxt verilir. T1 imtahanında sualların ən az 80%-nə düzgün cavab verənlər uğurlu hesab olunurlar. İmtahan sualları, bu bölmədə T1 imtahanı vasitəsilə ölçüləcək bütün bilik ifadələrini (Əlavə A1-2) əhatə etməlidir.

**8 b) Qabiliyyətə əsaslanan İmtahan**

A1 səriştəlilik bölməsində qabiliyyətə əsaslanan imtahan yoxdur.

**8 c) Ölçmə və Dəyərləndirməyə dair Digər Şərtlər**

Səriştəlilik bölməsinin etibarlılıq müddəti bölmənin uğur əldə edildiyi tarixdən etibarən 2 ildir.

| | | |
|---|---|---|
| **9** | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİ İNKİŞAF ETDİRƏN QURUM/TƏŞKİLAT(LAR)** | Beynəlxalq və Yerli Kouçluq Təşkilatları |

| | | |
|---|---|---|
| 10 | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİ TƏSDİQLƏYƏN TƏŞKİLAT** | Azerbaijan Quantum and Coaching Cooperation MMC-nin Şəxslərin Sertifikatlaşdırma Orqanı |

## SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ƏLAVƏLƏRİ

**ƏLAVƏ A1-1:** Səriştəlilik Bölməsinin Əldə Olunması üçün Tövsiyə Edilən Məlumatlar

1. **Kouçluq iş mühitlərində əmək sağlamlığı və təhlükəsizliyi ilə ətraf mühitin mühafizəsi**

- Əmək sağlamlığı və təhlükəsizliyində işəgötürənlərin və işçilərin hüquqi öhdəlikləri
- Alət, avadanlıq və cihazların təhlükəsiz istifadəsinə dair təlimat və prosedurlar, eləcə də bunların iş proseslərinə tətbiqi
- Risk və təhlükə anlayışları, növləri və xüsusiyyətləri
- İş mühitində risklərin qiymətləndirilməsi üsul/metodları
- Fövqəladə halların növləri və fövqəladə hallar zamanı hərəkət tərzi
- Əsas tullantı idarəçiliyi
- İş mühitində resurs səmərəliliyi tətbiqləri

2. **Kouçluq xidmətində işin təşkili**

- Kouçluq xidmətində təqdimetmə fəaliyyətləri
- İş proqramı hazırlamaq və iş mühitini təşkil etmək
- Kouçluq xidmətində təklif, müqavilə və maliyyə prosedurlarının aparılması
- Kouçluq xidmətində qeydiyyat aparmaq, arxivləşdirmək və məlumat təhlükəsizliyi

3. **Kouçluk xidmətində keyfiyyət, izləmə və qiymətləndirmə**

- Xidmət keyfiyyətini izləmə və qiymətləndirmə üsulları
- Özünüqiymətləndirmə aparmaq

4. **Kouçluq peşəkar inkişaf tətbiqləri**

- Karyera və peşəkar inkişafın planlaşdırılması
- Kouçluq xidmətləri ilə bağlı əsas peşəkar mənbələr, qanunvericilik və normalar
- Kouçluq xidmətlərində mentorluq tətbiqləri

**ƏLAVƏ A1-2:** Səriştəlilik Bölməsinin Ölçmə və Qiymətləndirilməsində İstifadə Olunacaq Nəzarət Siyahısı

**a) MƏLUMATLAR**

| No | Məlumatın İfadəsi | UMS Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BG.1 | Təhlükə və risk anlayışlarını və onların bir-biri ilə əlaqəsini izah edir. | A.1.1 | 1.1 | T1 |
| BG.2 | Kouçluq xidmətlərinin göstərildiyi mühitlə bağlı əmək sağlamlığı və təhlükəsizliyi üzrə təhlükə və riskləri izah edir. | A.1.1 | 1.1 | T1 |
| BG.3 | Kouçluq tətbiqləri ilə əlaqəli ola biləcək riskləri və bu risklərə qarşı görülməli olan uyğun tədbirləri izah edir. | A.1.1 | 1.1 | T1 |
| BG.4 | Kouçluq xidmətlərinin göstərildiyi mühitlə bağlı əmək sağlamlığı və təhlükəsizliyi üzrə qanunvericiliyə əsasən iş mühitində yaradılmalı olan nəzarət tədbirlərini izah edir. | A.1.3 | 1.1 | T1 |
| BG.5 | İş mühitində istifadə etdiyi alət, vasitə və avadanlıqların təhlükəsiz istifadə üsullarını izah edir. | A.1.2 | 1.1 | T1 |
| BG.6 | İş mühitində baş verə biləcək iş qəzası zamanı görüləcək tədbirləri izah edir. | A.2.2<br>A.2.3 | 1.2 | T1 |

| No | Məlumatın İfadəsi | UMS bağlı Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BG.7 | Kouçluq xidmətlərinin göstərildiyi mühitlə bağlı fövqəladə hal planını izah edir. | A.2.1 | 1.2 | T1 |
| BG.8 | Ətraf mühitin qorunması və ətraf mühit təhlükəsizliyi ilə resurs istifadəsi səmərəliliyi anlayışlarını izah edir. | A.3.1<br>A.3.2 | 1.3 | T1 |
| BG.9 | İş mühitində yaranan ekoloji tullantıların və yenidən emal edilə bilən materialların zərərsizləşdirilməsinə dair tətbiqləri izah edir. | A.3.1 | 1.3 | T1 |
| BG.10 | Peşəkar olaraq özü və kouçluq xidmətlərinə uyğun təqdim etmə strategiyasını/strategiyalarını izah edir. | B.1.1-<br>B.1.4 | 2.1 | T1 |
| BG.11 | Peşəkar olaraq özü və kouçluq xidmətləri üçün uyğun tanıtım vasitələri və tətbiqləri izah edir. | B.1.1-<br>B.1.4 | 2.1 | T1 |
| BG.12 | Üz-üzə tanıtım strategiyası baxımından müxtəlif tərəflərə görə həyata keçirilə biləcək ünsiyyət fəaliyyətlərini izah edir. | B.1.2,<br>B.1.4 | 2.1 | T1 |
| BG.13 | Kouçluq xidmətləri ilə bağlı bir təklif mətnində yer almalı olan peşəkar, hüquqi, maliyyə baxımından ilkin/əsas məzmunu izah edir. | B.2.1<br>B.2.6,<br>B.8.2 | 2.2 | T1 |
| BG.14 | Kouçluq xidmətləri ilə bağlı bir müqavilə mətnində yer almalı olan peşəkar, hüquqi, maliyyə baxımından ilkin/əsas məzmunu və sanksiyaları izah edir. | B.2.5-<br>B.2.6<br>B.6.2,<br>B.7.2 | 2.2 | T1 |
| BG.15 | Kouçluq xidmətinin maliyyə dəyərini və büdcələşməsini müəyyən edən amilləri izah edir. | B.7.1,<br>B.7.2 | 2.2 | T1 |
| BG.16 | Kouçluq xidməti ilə bağlı fakturalaşdırma və vergiyə cəlb olunma ilə bağlı əsas qanuni müddəaları və tətbiqləri izah edir. | B.7.3 | 2.2 | T1 |
| BG.17 | Kouçluq xidmətlərinin növlərinə və fərqliliklərinə görə iş proqramında və vaxt planlaşdırılmasında diqqət yetirilməli olan amilləri izah edir. | B.3.1,<br>B.3.2 | 2.3 | T1 |
| BG.18 | Göstərilən xidmətlərin məzmununa və fərqliliklərinə görə iş proqramında seans axını və müştərilər arasında təşkilati məsələlərdə diqqət yetirilməli olan amilləri izah edir. | B.3.1,<br>B.3.2 | 2.3 | T1 |
| BG.19 | Görüşmə və ya seansa uyğun olaraq iş mühitinin və materialların necə təşkil olunacağını izah edir. | A.1.3,<br>B.4.1 | 2.4 | T1 |

| | | | | |
|---|---|---|---|---|
| BG.20 | Kouçluq xidmətləri üçün aparılmalı olan peşəkar qeydləri izah edir. | B.5.1, B.5.2 | 2.5 | T1 |
| BG.21 | Kouçluq xidmətlərindəki peşəkar qeydlərin düzgün aparılması və arxivləşdirilməsi qaydalarını izah edir. | B.5.1, B.5.2, B.5.3 | 2.5 | T1 |

| No | Məlumatın İfadəsi | UMS bağlı Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BG.22 | Kouçluq xidməti qeydlərindən qorunması vacib olanları sadalayır. | B.6.1-B.6.4 | 2.5 | T1 |
| BG.23 | Kouçluq xidmətində qeydlərin təhlükəsizlik tədbirləri və əsaslandırmalarını izah edir. | B.6.3, B.6.4 | 2.5 | T1 |
| BG.24 | Kouçluq xidməti ilə bağlı aparılmalı olan maliyyə qeydlərini izah edir. | B.7.4 | 2.5 | T1 |
| BG.25 | Kouçluq xidmətlərində keyfiyyət anlayışını və əhatə dairəsini izah edir. | E.1.2, E.1.3, E.2.1, E.2.2 | 3.1 | T1 |
| BG.26 | Kouçluq xidmətlərinin keyfiyyətinin izlənməsi üçün zəruri ilkin məlumat və bilgiləri (xidmət növü, müştəri, müddət və s.) izah edir. | E.1.1 | 3.1 | T1 |
| BG.27 | Verdiyi kouçluq xidmətlərini inkişaf etdirmək məqsədilə tətbiqləri əsaslandırmaları ilə birlikdə izah edir. | E.1.2, E.1.3, E.2.1, E.2.2 | 3.1 | T1 |
| BG.28 | Kouçluq xidmətləri ilə bağlı özünüqiymətləndirmə formasının əsas məzmununu izah edir. | E.2.1, E.2.2 | 3.2 | T1 |
| BG.29 | Kouçluq xidmətləri ilə bağlı seans/fəaliyyət və proses əsaslı özünüqiymətləndirmə tətbiqlərini izah edir. | E.2.1, E.2.2 | 3.2 | T1 |
| BG.30 | Peşəkar təhsil alınması mümkün olan və rəsmi tanınan proqramları izah edir. | F.1.1 | 4.1 | T1 |
| BG.31 | Peşəkar fəaliyyəti ilə bağlı qüvvədə olan qanun və normaları izah edir. | F.1.3 | 4.2 | T1 |
| BG.32 | Peşəkar olaraq karyera inkişafı anlayışını izah edir. | F.1.1-F.1.4 | 4.3 | T1 |
| BG.33 | Kouçluq xidmətləri fəaliyyət sahələrinə görə (mənəvi, həyat, karyera, təhsil, idarəçi kouçluğu və s.) tələb olunan bilik və bacarıq növlərini və tətbiqlərlə əlaqələrini izah edir. | F.1.1-F.1.4 | 4.3 | T1 |
| BG.34 | Nümunə ssenariyə görə kouçun prosesdəki münasibətini, davranışını və yanaşmasını izah edir. | F.2.1, F.2.2 | 4.4 | T1 |
| BG.35 | Kouçluq tətbiqləri ilə bağlı nümunə vəziyyətlərdə, verilmiş ssenariyə əsasən kouçun bilik və bacarıq ehtiyaclarını izah edir. | F.2.1, F.2.2 | 4.4 | T1 |

## b) BACARIQ VƏ SƏLAHİYYƏTLƏR

| No | Bacarıq və Səlahiyyətin İfadəsi | UMS bağlı Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BY.1 | - | - | - | - |

## A2 KOUÇLUK PROSESİNİN QURULMASI VƏ İDARƏSİNİN SƏRİŞTƏLİLİK BÖLMƏSİ

| | | |
|---|---|---|
| 1 | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ADI** | Kouçluq Prosesinin Qurulması və İdarə Edilməsi |
| 2 | **ARAYIŞ KODU** | A2 |
| 3 | **SƏVİYYƏ** | 6 |
| 4 | **KREDİT DƏYƏRİ** | - |
| 5 | **A) DƏRC EDİLMƏ TARİXİ** | 06/01/2025 |
| | **B) REDAKTƏ №** | Red. N: 01 |
| | **C) REDAKTƏ TARİXİ** | 01 Nömrəli Redaktə 06/01/2025 |
| 6 | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ƏSASINI TƏŞKİL EDƏN PEŞƏ STANDARTI** | |
| Kouç (Səviyyə 6) Peşə Standartı | | |
| 7 | **ÖYRƏNMƏ NƏTİCƏLƏRİ** | |

**Öyrənmə Nəticəsi 1: Kouçluq xidməti üçün müştərinin xüsusiyyətlərini və ehtiyaclarını müəyyən edir.**

**Əsas Öyrənmə Nəticələri:**

1.1. Müştərinin xüsusiyyətlərinə və xidmət ehtiyaclarına uyğun məlumat toplayır.
1.2. Müştərini tanıma yönümlü kouçluq üsul və texnikalarını tətbiq edir.
1.3. Müştərinin profilini tərtib edir.

**Öyrənmə Nəticəsi 2: Müştəri ilə kouçluq münasibətini etik qaydalara, kouçluq üsullarına, müştərinin profilinə və xidmət ehtiyaclarına uyğun şəkildə qurur.**

**Əsas Öyrənmə Nəticələri:**

2.1. Müştəri ilə effektiv və peşənin etik qaydalarına uyğun kouçluq münasibəti və ünsiyyəti qurur.
2.2. Müştərinin kouçluq gündəmini dəqiqləşdirir.
2.3. Müştəri ilə görüşmə proseslərini məqsədə uyğun şəkildə qurur.
2.4. Kouçluq razılaşması tətbiqinin məzmununu və məqsədlərini izah edir.

**Öyrənmə Nəticəsi 3: Müştərinin fəaliyyət planı hazırlamasını dəstəkləyir.**

**Əsas Öyrənmə Nəticələri:**

3.1. Müştərinin müəyyən etdiyi hədəflərə çatması ilə bağlı fəaliyyətlərin müəyyənləşdirilməsi yönümlü tətbiqləri həyata keçirir.
3.2. Müştərinin hədəflərinə uyğun olaraq müəyyən etdiyi fəaliyyətləri planlaşdırma və mərhələləndirmə formasında tənzimləməsini və qərarlılığını qiymətləndirməsini təmin edir.

**Öyrənmə Nəticəsi 4: Müştərinin fəaliyyət planını tətbiq etməsini təmin edir.**

**Əsas Öyrənmə Nəticələri:**

4.1. Müştərinin fəaliyyətə başlaması üçün texnikalar tətbiq edir.
4.2. Müştərinin özünəinamını dəstəkləmək üçün texnikalar tətbiq edir

**<u>Öyrənmə Nəticəsi 5: Müştərinin fəaliyyət planına görə inkişaf prosesini izləmə, qiymətləndirmə və kouçluq prosesini tamamlama tətbiqlərini həyata keçirir.</u>**

**Əsas Öyrənmə Nəticələri:**

5.1. Özünün və müştərinin irəliləyiş prosesini izləmə yönümlü tətbiqləri, müştərinin hədəflərinə və fəaliyyət planına uyğun şəkildə yerinə yetirir.

5.2. Kouçluq prosesində izləmə və yekunlaşdırma üçün qiymətləndirmə tətbiqlərini həyata keçirir.

| 8 | ÖLÇMƏ VƏ QİYMƏTLƏNDİRMƏ |
|---|---|

### 8 a) Nəzəri İmtahan

A2 Səriştəlilik Bölməsinə aid nəzəri imtahan, Əlavə A2-2-də yer alan "Biliklər" nəzarət siyahısına əsasən həyata keçirilir. Namizədin nəzəri imtahandan uğur qazanması üçün aşağıda təsvir edilən T1 və T2 imtahanlarının hər ikisindən də uğurlu olması tələb olunur.

**Çox variantlı test imtahanı (T1):** Nəzəri imtahanda qiymətləndirmə vasitəsi T1 olan meyarlar üzrə namizədlərə ən az 24 sualdan ibarət, 5 variantlı və hər biri bərabər bal dəyərinə malik test sualları verilir. Boş buraxılmış və ya səhv cavablandırılmış suallar üçün şərt tətbiq edilmir. Hər sual üçün ortalama bir dəqiqə vaxt verilir. T1 imtahanında sualların ən az 80%-nə düzgün cavab verən namizəd uğurlu hesab olunur. İmtahan sualları bu bölmədə T1 imtahanı ilə ölçülməsi nəzərdə tutulan bütün bilik ifadələrini (Əlavə A2-2) əhatə etməlidir.

**Açıq tipli imtahan (T2):** Nəzəri imtahanda qiymətləndirmə vasitəsi T2 olan meyarlar üçün də namizədlərə meyarların bütün məzmununu əhatə edəcək şəkildə hazırlanmış və bal dəyərləri meyarın məzmunu və səviyyəsinə uyğun müəyyən edilmiş, ən az 1 açıq tipli sualdan ibarət yazılı imtahan tətbiq edilməlidir. T2 imtahanı üçün namizədlərə meyar, sualın məzmunu və səviyyə nəzərə alınmaqla müəyyən edilmiş müddət verilir. T2 imtahanında 100 üzərindən ən az 80 bal alan namizəd uğurlu sayılır. İmtahan sualları T2 imtahanı ilə ölçülməsi nəzərdə tutulan bütün bilik ifadələrini (Əlavə A2-2) ölçməlidir.

### 8 b) Qabiliyyətə Əsaslanan İmtahan

**Kouçluq Prosesi Müştəri Görüşməsi (P1)**: Namizədin ssenariyə əsasən koçluq prosesini qurma və icra etmə üzrə qabiliyyəti qiymətləndirilir. Qabiliyyətə əsaslanan imtahanda namizədin (real rol aparan) bir müştəri ilə ən az 25 dəqiqə davam edəcək bir görüşmə keçirməsi gözlənilir. Qabiliyyətə əsaslanan imtahan, real və ya reallığa uyğun şəkildə təşkil olunmuş iş mühitində, Əlavə A2-2-dəki "Bacarıqlar və Səlahiyyətlər" nəzarət siyahısına əsasən həyata keçirilir. Namizədin qabiliyyətə əsaslanan imtahandan uğur qazanması üçün əhəmiyyətli addımların hamısından uğurlu olmalıdır. Eyni zamanda bütün addımlardan ən az 80% uğur əldə etməsi tələb olunur. Bacarıq və səlahiyyət ifadələrinin (Əlavə A2-2) hamısı qabiliyyətə əsaslanan imtahan vasitəsilə ölçülməlidir.

**Kouçluq Prosesi Geridönüş Tətbiqi (P2)**: Namizədin P1 imtahanında keçirdiyi görüşmə ilə bağlı təqdim etdiyi geridönüşlərin imtahan komissiyasına təqdimatı əsasında qabiliyyəti qiymətləndirilir. Təqdimat zamanı qiymətləndirmə edən heyət, bacarıq və səlahiyyətlər nəzarət siyahısındakı addımların yerinə yetirilmə səviyyəsinə görə namizədə suallar verərək onun izahat verməsini təmin edir. Qabiliyyətə əsaslanan imtahan, real və ya reallığa uyğun təşkil olunmuş iş mühitində, Əlavə A2-2-dəki "Bacarıqlar və Səlahiyyətlər" nəzarət siyahısına əsasən həyata keçirilir. Namizədin qabiliyyətə əsaslanan imtahandan uğur qazanması üçün əhəmiyyətli addımların hamısından uğurlu olmlıdır. Eyni zamanda bütün addımlardan ən az 80% uğur əldə etməsi tələb olunur. Bacarıq və səlahiyyət ifadələrinin (Əlavə A2-2) hamısı qabiliyyətə əsaslanan imtahan vasitəsilə ölçülməlidir.

| 8 c) Ölçmə və Qiymətləndirməyə dair Digər Şərtlər | | |
|---|---|---|
| Bölmə üçün nəzərdə tutulan imtahanların (T1, T2, P1, P2) etibarlılıq müddəti, imtahanın uğur qazanıldığı tarixdən etibarən 1 ildir. Bölməni əldə etmək üçün uğur əldə edilən imtahanlar arasındakı tarix fərqi 1 ili keçə bilməz**.** P1 və P2 imtahanları ardıcıl şəkildə keçirilməlidir, lakin hər bir imtahanın qiymətləndirilməsi müstəqil aparılmalıdır.<br>Səriştəlilik bölməsinin etibarlılıq müddəti, bölmənin uğur əldə edildiyi tarixdən etibarən 2 ildir. | | |
| **9** | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİ İNKİŞAF ETDİRƏN QURUM/TƏŞKİLAT(LAR)** | Beynəlxalq və Yerli Kouçluq Təşkilatları |
| **10** | **SƏRİŞTƏLİLİK BÖLMƏSİNİ TƏSDİQLƏYƏN SEKTOR KOMİTƏSİ** | Azerbaijan Quantum and Coaching Cooperation MMC-nin Şəxslərin Sertifikatlaşdırma Orqanı |

## SƏRİŞTƏLİLİK BÖLMƏSİNİN ƏLAVƏLƏRİ

**ƏLAVƏ A2-1:** Səriştəlilik Bölməsinin Əldə Olunması üçün Tövsiyə Edilən Təlim Məlumatları

1. Kouçluq Sistemi üzrə Əsas Biliklər
   - Əsas Kouçluq Bilikləri
   - Kouçluq Etik Qaydaları
   - Kouçluğun Tətbiq Sahələri
   - Kouçluq Sərhədləri
   - Kouçluq Səlahiyyətləri
   - Kouçluq Prosesində Görüşmə Prinsipləri və Texnikaları
   - Kouçluq  Texnikaları

2. Kouçluq Texnikaları və Üsulları
   - Əsas İş Mövzusunun Müəyyən Edilməsi
   - Müştərini Tanıma
   - Kouçluqda Effektiv Ünsiyyət
   - Yaradıcı Düşünmə Texnikaları
   - Hədəf Müəyyənləşdirmə
   - Fəaliyyət Planlaşdırılması və Prioritetləşdirilməsi

**ƏLAVƏ A2-2:** Səriştəlilik Bölməsinin Ölçmə və Qiymətləndirilməsində İstifadə Olunacaq Nəzarət Siyahısı

c) **MƏLUMATLAR**

| No | Məlumatın İfadəsi | UMS bağlı Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BG.1 | Görüşmə prinsipləri və texnikalarını izah edir. | C.2.1, C.2.2 | 1.1 | T1 |
| BG.2 | Müştəriyə dair birbaşa məlumat toplama tətbiqlərini izah edir. | C.2.1, C.2.2 | 1.1 | T1 |
| BG.3 | Kouçluq xidmətinin məqsədinə görə uyğun məlumatları və məlumat toplama texnikalarını izah edir. | C.2.1-C.2.3 | 1.1 | T1 |
| BG.4 | Müştərini tanıma yönümlü istifadə oluna biləcək tətbiq texnikalarını izah edir. | C.2.3 | 1.2 | T1 |
| BG.5 | Nümunə vəziyyət/ssenariyə əsasən müştərinin güclü-zəif tərəfləri, imkanları, fürsətləri, riskli sahələri, öyrənmə tərzi və maneələri, | C.2.4 | 1.3 | T1 |

| | | | | |
|---|---|---|---|---|
| | dəyərləri kimi ünsürləri müəyyən edir. | | | |
| BG.6 | Nümunə vəziyyət/ssenariyə əsasən müştərinin güclü-zəif tərəfləri, imkanları, fürsətləri, riskli sahələri, öyrənmə tərzi və maneələri, dəyərləri kimi ünsürləri əlaqəli şəkildə qiymətləndirərək profilini formalaşdırır. | C.2.4 | 1.3 | T2 |

| | | | | |
|---|---|---|---|---|
| BG.7 | Müştərinin vəziyyətinə görə, hüquqi, maliyyə və digər əlaqəli sahələrdəki xidmət ehtiyaclarını müəyyən etdirərək uyğun xidmət mənbələrinə necə istiqamətləndirəcəyini izah edir. | C.2.5 | 1.3 | T1 |
| BG.8 | Müştəri ilə təsirli kouçluq əlaqəsi və ünsiyyətin (aktiv dinləmə, empati, bədən dili və oxşarı) anlayışlarını müəyyən edir. | C.1.1-C.1.5 | 2.1 | T1 |
| BG.9 | Kouçluq xidmətlərindəki peşəkar davranış, səlahiyyət sərhədləri, davamlı peşə inkişafı, məxfilik, maraq toqquşmaları və tərəfsizlik mövzuları ilə bağlı etik qaydaları izah edir. | C.1.1-C.1.5 | 2.1 | T1 |
| BG.10 | Nümunə vəziyyət/ssenariyə əsasən müştərinin məqsədinə və ehtiyaclarına uyğun inkişaf sahələri və əsas iş mövzusunu müəyyən edir. | C.3.1, C.3.2 | 2.3 | T1 |
| BG.11 | Müştərinin məqsədinə uyğun inkişaf sahələri və əsas iş mövzusunu müəyyən etməsinə istiqamətlənmiş vəziyyət təyini və ehtiyac təhlili texnikalarını izah edir. | C.3.1, C.3.2 | 2.3 | T1 |
| BG.12 | Kouçluq müqaviləsinin məzmunu və tətbiq şərtlərini izah edir. | C.3.1, C.3.2 | 2.4 | T1 |

## d) BACARIQ VƏ SƏLAHİYYƏTLƏR

| No | Bacarıq və Səlahiyyətin İfadəsi | UMS bağlı Bölmə | Səriştəlilik Bölməsi Uğur Göstəricisi | Qiymətləndirmə Vasitəsi |
|---|---|---|---|---|
| BY.1 | Müştərini tanıma yönümlü həyat çevrəsi, canlandırma, vizyon işi kimi əsas kouçluq üsul və texnikalarını tətbiq edir. | C.2.3 | 1.2 | P2 |
| BY.2 | Müştəri ilə münasibətlərində aktiv dinləmə üsulundan istifadə edərək, müştərinin ifadələrindəki alt mesajları görür və görüşmə texnikalarına uyğun şəkildə əks etdirir(*). | C.1.1-C.1.3 | 2.1 | P1 |
| BY.3 | Müştərinin bədən dili ilə şifahi ifadəsi arasındakı uyğunluq və ya ziddiyyəti müəyyən edərək bu vəziyyətə uyğun rəy bildirir(*). | C.1.1-C.1.2 | 2.1. | P2 |
| BY.4 | Görüşmə zamanı bədən dili və şifahi ifadələri uyğun şəkildə istifadə edir. | C.1.3 | 2.1 | P1 |

| | | | | |
|---|---|---|---|---|
| BY.5 | Bədən dili və şifahi ifadələrini, müştərinin bədən dili və şifahi ifadələrini nəzərə alaraq istifadə edir. | C.1.3 | 2.1 | P1 |
| BY.6 | Müştərinin gündəminə uyğun və açıq tipli suallar soruşur(*). | C.1.4 | 2.1 | P1 |
| BY.7 | Müştərini düşünməyə təşviq edən, onun fərqindəliyini artıran və yaradıcı suallar soruşur(*). | C.1.4 | 2.1 | P1 |

| | | | | |
|---|---|---|---|---|
| BY.8 | Müştərinin gündəmi və inkişafı ilə əlaqəli suallar verir(*). | C.1.4 | 2.1 | P1 |
| BY.9 | Müştərinin gündəminə uyğun, düşünməyə təşviq edən və fərqindəliyini artıran rəy verir(*). | C.1.5 | 2.1 | P1 |
| BY.10 | Müştərini düşünməyə təşviq edən və hərəkətə keçməsini təmin edən rəy verir(*). | C.1.5 | 2.1 | P1 |
| BY.11 | Müştəriyə yaradıcı rəy verir(*). | C.1.5 | 2.1 | P1 |
| BY.12 | Kouçuluq xidmətinin məqsədi, sərhədləri və etik qaydaları şifahi/yazılı şəkildə müştəriyə məlumat verir(*). | B.6.1, B.6.2 | 2.1 | P2 |
| BY.13 | Müştəri ilə məsləhət və ya qərar verən, eləcə də mühakiməedici mövqedə olmadan, peşəkar, etik qaydalara uyğun əlaqə qurur(*). | C.1.1-C.1.5 | 2.1 | P1 |
| BY.14 | Müştərinin mövcud görüşmənin məqsədini müəyyən etməsini təmin edir(*). | C.2.1, D.1.1, D.1.2, D.3.3, D.4.1 | 2.2 | P1 |
| BY.15 | Müştərinin mövcud vəziyyəti təsvir etməsini təmin edir(*). | C.2.1, D.1.1, D.1.2, D.3.3, D.4.1 | 2.2 | P1 |
| BY.16 | Görüşmə prosesi ərzində uyğun kouçluq texnikaları ilə müştərinin seçimlərini müəyyənləşdirməsini və qiymətləndirməsini təmin edir. | C.2.1, D.1.1, D.1.2, D.2.1, D.3.3, D.4.1 | 2.2 | P1 |
| BY.17 | Müştərinin görüşmə məqsədinə uyğun alternativ həllərə qərar verməsini təmin edir(*). | C.2.1, D.1.1, D.1.2, D.3.3, D.4.1 | 2.2 | P1 |
| BY.18 | Görüşmə prosesi ərzində uyğun kouçluq texnikaları ilə müştərinin seçim/məqsədlərlə bağlı maneələri, imkanları və resursları qiymətləndirməsini təmin edir(*). | D.2.1 | 3.1 | P1 |
| BY.19 | Görüşmə ərzində uyğun kouçluq texnikaları ilə müştərinin maneələri aşmaq və imkanlardan istifadə etmək üçün fəaliyyətlərini müəyyən etməsini təmin edir(*). | D.2.1 | 3.1 | P1 |

| | | | | |
|---|---|---|---|---|
| BY.20 | Uyğun kouçluq texnikaları ilə müştərinin məqsəd(lər)inə çatmaq üçün təyin etdiyi hərəkətləri prioritet və planlaşdırmağı təmin edir(*). | D.2.2 | 3.2 | P1 |
| BY.21 | Uyğun koçluq texnikaları ilə müştərinin müəyyən etdiyi prioritet və planlaşdırmaya əsasən tətbiq üçün qərarlılıq səviyyəsini müəyyən edir. | D.2.3 | 3.2 | P1 |
| BY.22 | Müştərinin fəaliyyətə başlamasını təmin etmək üçün söz alma texnikasını tətbiq edir(*). | D.3.1 | 4.1 | P1 |
| BY.23 | Müştərinin fəaliyyətə başlaması üçün tapşırıq vermə texnikasından istifadə edir. | D.3.1 | 4.1 | P1 |

| | | | | |
|---|---|---|---|---|
| BY.24 | İzləmə texnikasını müştərinin fəaliyyətə başlamasını təmin edəcək şəkildə tətbiq edir. | D.3.1 | 4.1 | P1 |
| BY.25 | Yaxşı nümunə araşdırma texnikasını müştərinin özünə inamını dəstəkləyəcək şəkildə tətbiq edir. | D.3.2 | 4.2 | P1 |
| BY.26 | Keçmiş uğurları xatırlatma texnikasını müştərinin özünə inamını dəstəkləyəcək şəkildə tətbiq edir. | D.3.2 | 4.2 | P1 |
| BY.27 | Hədəfə çatdıqda əldə ediləcək uğuru təsəvvür etmə texnikasını müştərinin özünə inamını dəstəkləyəcək şəkildə tətbiq edir. | D.3.2 | 4.2 | P1 |
| BY.28 | Fəaliyyət planındakı addımlara əsasən hər görüşmənin əvvəlində; əvvəlki seansda qəbul etdiyi qərarlar, əldə etdiyi nəticələr, varsa verilmiş tapşırıqların nəticələri, məqsədə bağlılıq və motivasiya vəziyyəti kimi mövzuları müştəri ilə birlikdə qiymətləndirir(*). | D.4.1 | 5.1 | P2 |
| BY.29 | Kouçluq prosesindəki ara qiymətləndirmələrdə müştərinin iş mövzusu və məqsədlərinin etibarlılığını və inkişaf vəziyyətini qiymətləndirməsini təmin edir(*). | D.4.2 | 5.1 | P2 |
| BY.30 | Kouçluq prosesindəki ara qiymətləndirmələrdə müştərinin kouçluq prosesindən faydalanma və davam etmə vəziyyətini qiymətləndirməsini təmin edir. | D.4.2 | 5.1 | P2 |
| BY.31 | Kouçluq prosesindəki ara qiymətləndirmələrə əsasən müştəri davam edəcəksə, kouçluq metodlarında dəyişiklik lazım olub-olmadığını qiymətləndirərək müəyyən edir. | D.4.2 | 5.1 | P2 |
| BY.32 | Kouçluq prosesinin tamamlanması mərhələsində müştərinin prosesi yenidən nəzərdən keçirməsini təmin edir, eləcə də əldə olunan inkişaf, dəyişiklik və fərqindəliklə bağlı geridönüş alır(*). | D.5.1, D.5.2 | 5.2 | P1 |
| BY.33 | Kouçluq prosesinin yekun mərhələsində müştərinin hədəf(lər)ə bağlılığını və motivasiya səviyyəsini müəyyən etməsini təmin edir. | D.5.2 | 5.2 | P2 |
| BY.34 | Prosesin yekun mərhələsində müştərinin gələcəyə dair dəyərləndirmələr aparmasını təmin edir. | D.5.2 | 5.2 | P1 |
| BY.35 | Prosesin yekunlaşması zamanı müştəriyə bu müddətdə əldə olunan nailiyyətlər, fərqindəliklər və yaşanan təcrübələrə dair geridönüş edir. | D.5.1, D.5.2 | 5.2 | P1 |

(*) Yerinə yetirilməsi zəruri olan əsas addımlar.